# 2009 İLDƏ AVROPA PARLAMENTİNƏ SEÇKİYƏ DAİR AVROPA LİBERAL DEMOKRAT VƏ İSLAHATÇILAR PARTIYASININ MANİFESTİ

31 oktyabr 2008-ci Stokholm konqressi

# AVROPA LİBERALLARININ AVROPA PARLAMENTİNƏ SEÇKİQABAĞI 15 TEZİSİ

Avropa Birliyində fəallağı ilə seçilən liberallar artıq 60 ildən çoxdur ki, sülh, həmrəylik və yüksək həyat səviyyəsi uğrunda mübarizə aparırılar. Bizim bu mübarizəmiz, yüksək potensiala malik olan, demokratik Birliyin, vahid bazarın, ətraf mühitin təhlükəsizliyinin, vətəndaş azadlıqları və fundamental hüquqların təmin olunmasına yönəlibdir. Biz istərdik ki, Avropa Birliyi, qlobal təhlükəsizlik problemlərinin həllində, beynəlxalq maliyyə böhranı və onun nəticələri ilə mübarizədə qabağcıl rollardan birini oynasın, liberal demokratiya və bazar iqtisadiyyatının dəyər və prinsiplərinə uyğun olaraq modernləşmə və inkişaf yolunda öz mövqelərini möhkəmləndirsin.

Avropa Liberal Demokrat və İslahatçılar Partiyası (ELDR), say hesabı ilə Avropa Parlamentində üçüncüdürlər, məhz buna görə onlar bir çox hallarda Avropa Parlamentində müzakirə olunan qanunvericilik və siyasət məsələlərində həlledici rol oynayırlar.

ELDR Lissabon Sazışının qəbul olunması və həyata keçməsinin labüdlüyünə inanır. Sazış Avropa Birliyinin qurumlarının islah olunmasını, onların fəaliyyətinin şəffaflığını və demokratik xarakterinin möhkəmləndirilməsini tələb edir, Avropa Birliyini müasir qlobal problemlərin həlli üçün lazım olan alətlərlə təmin edir. ELDR Sazişin tezliklə tətbiq yollarının razılaşdırılmasını Birliyə üzv olan dövlətlərdən təkidlə tələb eləyir.

## Vətəndaş azadlıqları

Vətəndaş azadlıqları və azadlıq liberal Avropanın təməllərindəndir.

1. ELDR, bütün fundamental azadlıqların, xüsusən dövri mətbuat, fikir, çıxış, birləşmə, din və mülkiyyət azadlıqları, azlıqların hüquqlarının və insanların şəxsi həyatının və ləyaqətinin qorunmasının təmin olunmasını tələb edir.
2. ELDR istəyir ki, Avropa Birliyi sözün əsl mənasında azadlıq, təhlükəsizlik və ədalət arenasına çevrilsin, beynəlxalq cinayət, terrorizm və korrupsiyaya qarşı mübarizədə siyasi və hüquq orqanları arasında daha möhkəm əməkdaşlıqı,

bütün hallarda şübhəli qismində saxlananların fundamental prosesual hüquqlarına hörmətlə yanaşmaqı təmin etsin.

## Avropa Birliyində vahid bazar, inkişaf və məşqulluq problemləri

Dövlətlər arası rəqabət, bilik mübadiləsi, mal və xidmətlərin sərbəst ticarəti, Avropa Birliyinin beynəlxalq iqtisadi arenada rəqabət aparmaq bacarığının təkmilləşməsi üçün başlıca amillərdən biridir.

3. ELDR, "beşinci azadlıq" ideyasını dəstəkliyir – kəşf və ixtiraları dəstəkləmək məqsədi ilə biliklərin sərbəst hərəkəti, o cümlədən tələbə, alim və tədqiqatçıların AB dövlətlər arasında daha sərbəst hərəkətetmə qabiliyyəti. ELDR intellektual mülkiyyət üçün vahid bazarın yaranmasını tələb edir.
4. ELDR hesab eləyir ki, Avropanın rəqabət apara bilən biznes mühitinin, Avropa vətəndaşlarının imkan daxilində ən yüksək yaşayış standartlarına nail olmasında və AB standartlarının qlobal miqyasda inkişaf etməsində vacib yeri var. Vahid bazar, enerji, poçt və maliyyə xidmətləri, dəmir yolu və səhiyyə sektorlarını əhatə edib möhkəmlənməlidir, xidmət və əmək resurslarının sərbəst hərəkəti, o cümlədən kvalifikasiyaların qarşılıqlı tanınması daha da asanlaşmalıdır. Ümumdünya Ticarət Təşkilatında AB-yi, kömrük rüsumları və qeyri-tarif baryerlərinin ləğv olunması, Avropanin vahid bazarının bütün dünyaya açıqlanmasında hərəkətverici qüvvə olmalıdır.
5. ELDR bir daha təsdiq edir ki, Avropa Mərkəzi Bankının və milli mərkəzi banklarının müntəzəm inkişafı və müstəqilliyi, bütün AB-inə daxil olan dövlətlər tərəfindən qəbul olunan Maastrixt meyarına uyğun olaraq düzgün maliyyə siyasətinin aparılması, o cümlədən dövlətlərin avroya sadiq olması, tərəqqi və rifah naminə vacib olaraq qalmaqdadır. Ancaq həqiqətən rəqabət apara bilən, bütün vətəndaşları üçün iş yerlərini və imkanları yaradan Avropa, vahid bazarın social ölçüsünə həlledici təsir göstərə bilər.
6. ELDR, maliyyə sisteminin islahatına yönəldilmiş addımları salamlayır və qeyd eləyir ki, bu addımlar daha mükəmməl tənzim və nəzarət mexanizminin köməyi ilə tətbiq olmalıdır. İnsanların rifahının əsas zəmanəti, bazar iştirakçılarının yüksək səxsi məsuliyyətlə qoyulmuş məsələlərə yanaşmaqlarıdır. Millətçilik, həddən artıq tənzimləmə və proteksionizm siyasətinə baş qoşmaq cəhdləri böyük bir səhvlərə gətirib çıxara bilər. ELDR, tənzimləyicilər arasında intensiv beynəlxalq əməkdaşlıqı və beynəlxalq standartların təkmilləşməsini dəstəkləyir, və hesab edir ki, gələcək maliyyə böhranlarının qarşısını almaq məqsədi ilə bu prosesdə islahatlardan keçmiş Beynəlxalq Valyuta Fondu aparıcı rol oynamalıdır.
7. ELDR, AB vətəndaşlarının səadətinə qulluq göstərən ölçülmüş iqtisadı miqrasiyanı təmin etmək məqsədi ilə AB-nə üzv olan dövlətlər tərəfindən idarə olunan "mavi kart" sisteminin tətbiqini dəstəkləyir.

## Ətraf mühit və enerji təhlükəsizliyinə dair siyasət

İqlimin qlobal şəkildə dəyişilməsi və enerji təhlükəsizliyi Avropadan müştərək cavab tələb edir. Avropa, enerji qənaətində, bərpa olunan enerji mənbələrinin tətbiqində, bazar iqtisadiyyatının kreativ üsullarının və bununla belə yeni iş yerlərinin açılmasına

yönədilmiş stimulların təmin olunmasında dünyada kiçik karbon tərkibli, səmərəli iqtisadiyyata malik olmalı və by sahədə dünyanın aparıcı qurumlarından biri olmalıdır.

8. ELDR qeyd edir ki, iqlim problemlərinin həllində biznes inzibati yükün azadilmasına və kiçik karbon tərkibli iqtisadiyyatın güclənməsi məqsədi ilə texnologiyalara sərmayələrin gətirilməsini təmin edən stimulların artırılmasında ehtiyac duyulur. ELDR istəyir ki, enerji təchizatlarının təhlükəsizliyinin yüksəlməsini, səmərəliliyini və bu kimi problemlərin həll yollarını təmin edən texnologiyalara sərmayələr çoxalsın.
9. ELDR, şəffaflığı və istehlakçı maraqlarının təmin olunması, müntəzəm iqtisadı inkişaf üzərində bərqərar olan iqlim və enerjiyə dair siyasətin inteqrasiyası, ətraf mühitin qorunması məqsədilə Avropa enerji sənayəsini istiqamətləndirmək və bu sahədə qlobal lider olmaq niyyətindədir.
10. ELDR, Ümumdünya Ticarət Təşkilatı (WTO) çərçivəsində Ümumi Aqrar Siyasətin perspektiv islahatını fəal surətdə dəstəkləyir. Bu islahat AB fermerlərinə sərbəst qlobal bazar şəraitində rəqabət aparmaqa, ətraf mühitin qorunması baxımından gida məhsullarına olan və günü-gündən artan tələbatı təmin etməyə, bərpa olunan enerjilər, o cümlədən ən müasir bio-yanacaqlar sahəsində maliyyələşdirmə strategiyasını düzgün yönədilməsinə və gida məhsullarının uzunmüddətli təchizatına zəmanət verilməsinə imkan yaradır. ELDR, 2013-cü ildən sonra Ümumi Aqrar Siyasətin büdcəsinin azadılmasını dəstəkləyir.

## Genişlənməyə dair siyasət, xarici, təhlükəsizlik və müdafiə siyasəti

Qloballaşan dünyada AB-nin hər hansı bir dövləti bizim bu gün qarşılaşdığımız hərbi və mülki böhranların idarə olunması, enerji təchizatının və beynəlxalq ticarətin təhlükəsizliyi, silahlara nəzarət və silahsızlaşdırma, terrorizmə qarşı mübarizə, mütəşəkkil cinayət, iqlimin dəyişilməsi, yoxsulluq və insan hüquqlarının pozulması kimi təhlükə və problemləri həll etmək iqtidarında deyil. AB-nin vətəndaşları, AB-nin və ona üzv olan dövlətlərin qlobal problemlərdə müştərək mövqe tutmasina, birgə fəaliyyət göstərməsinə ümid bəsləyir.

11. ELDR hesab edir ki, AB-nin genişlənməsi uğurlu bir prosesdir. O, inteqrasiyaya meyillilik kimi vacib göstəricisi olan AB-nə daxil olmaq (Kopenhaqen) meyarına uyğun olan dövlətlərin AB-yi qarşısında öhdəliklərinin yerinə yetirilməsini dəstəkləyir.
12. ELDR hesab edir ki, AB, qlobal təhlükəsizliyinin təmin olunmasında vacib rol oynamalı və bu istiqamətdə lazım olarsa NATO qurumlarından istifadə etməlidir. Məhz buna görə, biz, Avropanın mudafiə yönümlü ehtiyat və bacarıqlarını bir yerə tolpamaqla Avropanın Təhlükəsizlik və Müdafiə Siyasətini geniş yaymaq və möhkəmləndirmək istiqamətində mühüm addımlar tələb edirik. Bu, AB-nin hərbi müdafiə əməkdaşlığını və onun beynəlxalq təhlükəsizliyə və humanitar xarakteri daşıyan fövqəladə hallara olan təsirini gücləndirəcəkdir.
13. ELDR hesab edir ki, AB-nin üzvü olan dövlətlərin maraqları, Ümumi Xarici və Təhlükəsizlik Siyasəti və onun Ali Təmsilçisi tərəfindən təmin olunur.
14. ELDR qeyd edir ki, AB mülki böhranın idarə olunması bacarığını möhkəmləndirməli, münaqişə halları ilə qarşılaşan və ya o halları yaşayan dövlətlərdə sabitliyi, qanunun hakimliyini və düzgün korporativ idareetmə prinsiplərini təmin emək məqsədi topladıqı təcrübəni istifadə etməlidir.

15. ELDR təkidlə qeyd edir ki, AB, regional qeyri-sabit hallara, müflisləşmiş dövlətlərdən terror təhlükələrinə və humanitar xarakter daşıyan fövqəladə hallara daha yaxşı hazır olmaq məqsədi ilə, özünün münaqişədən sonra təşkilat və dövlət infrastrukturunu qurmaq təcrübəsini istifadə etməli və yaymalıdır.